# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**Qiymətli kağızlar və əlaqəli maliyyə alətləri - qiymətli kağızların beynəlxalq identifikasiya kodlaşdırma sistemi (İSİN)**

AZS 267-2007

(İSO 6166:2001(E))

Rəsmi nəşr


**Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi**

**BAKI 2007**

# Müqəddimə

1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən **işlənib və təqdim edilib**.

2. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin «11» iyun 2007-ci il tarixli 071 saylı əmri ilə **təsdiq edilib və qüvvəyə minib.**

3. Bu standart İSO 6166:2001(E) beynəlxalq standartının Azərbaycan dilində autentik tərcüməsidir.

4. İlk dəfə tətbiq edilir.

5. İlk yoxlama müddəti 2012-ci il, dövrü yoxlama 5 ildir.

Bu standart Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz.

# Mündəricat

Müqəddimə........................................ iv

Giriş........................................ v

1 Əhatə dairəsi........................................ 1

2 Normativ istinad........................................ 1

3 Termin və anlayış........................................ 1

4 Prinsiplər........................................ 2

5 İSİN-in verilməsi........................................ 2
5.1 Nömrələyici agentliyi mövcud olan ölkələr........................................ 2
5.2 Nömrələyici agentliyi mövcud olmayan ölkələr........................................ 2
5.3 Mövcud İSİN-lər və İSİN-ləri olmayan mövcud qiymətli kağızlar........................................ 2
5.4 İSİN üçün ərizə........................................ 3
5.5 Informasiya mübadiləsi........................................ 3

6 Qeydiyyat orqanı........................................ 3

7 Məlumatlar və sorğular........................................ 3

Əlavə A (normativ) Modul 10 “ikiqat artır-topla- ikiqat artır” yoxlayıcı rəqəminin hesablanması üçün formula........................................ 5

Əlavə B (normativ) Nömrələyici agentliklərin səlahiyyətləri........................................ 7

Əlavə C (normativ) Minimum məlumat........................................ 10

Əlavə D (məlumat üçün) Misallar........................................ 11

# Müqəddimə

İSO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) milli standartlar təşkilatlarının (İSO üzv təşkilatları) ümumdünya federasiyasıdır. Beynəlxalq Standartların hazırlanmasına dair iş adətən İSO-nun texniki komitəsi vasitəsilə həyata keçirilir. Texniki komitənin təsis olunmasına səbəb olan mövzuya dair marağı olan hər bir üzv təşkilat həmin komitədə təmsil olunmaq hüququna malikdir. İSO ilə əlaqəsi olan beynəlxalq, dövlət və qeyri-dövlət təşkilatları həmçinin bu işdə iştirak edirlər. İSO elektrotexniki standartlaşdırmaya dair bütün məsələlər üzrə Beynəlxalq Elektrotexniki Komissiya (İEC) ilə sıx əməkdaşlıq edir.

Beynəlxalq Standartlar İSO/IEC Direktivlərinin 3-cü Bölməsində göstərilən qaydalara müvafiq hazırlanır.

Texniki komitə tarəfindən qəbul edilmiş Beynəlxalq Standartlar Layihəsi üzv təşkilatlar arasında səsvermə üçün yayılır. Beynəlxalq Standartın dərc olunması səsvermədə iştirak edən üzv təşkilatların ən azı 75%-in müsbət səs verməsini tələb edir.

Diqqət bu Beynəlxalq Standartın bəzi hissələrinin patent hüquqlarının predmeti olması mümkünlüyünə yönəlib. İSO istənilən və ya bütün bu cür patent hüquqlarının müəyyənləşdirilməsinə dair üzərinə məsuliyyət götürmür.

İSO 6166 Beynəlxalq Standartı İSO/TC 68 Texniki Komitəsi, *Bankçılıq, qiymətli kağızlar və digər maliyyə xidmətləri*, SC 4 Subkomitəsi, *Qiymətli kağızlar və əlaqəli olan maliyyə alətləri* tərəfindən hazırlanmışdır.

Bu altıncı nəşr qiymətli kağızlar olmayan digər maliyyə alətlərini də əhatə edir və beşinci nəşri (İSO 6166:1994) ləğv edir və əvəzləyir.

A, B və C Əlavələri bu Beynəlxalq Standartın normativ hissəsidir. Əlavə D yalnız məlumat üçündür.

# Giriş

Beynəlxalq qiymətli kağızlar bazarının sürətli inkişafı ilə əlaqədar universal istifadəsi mümkün olan qiymətli kağızların beynəlxalq identifikasiya nömrəsinə (İSİN) ehtiyac mövcuddur.

Bu Beynəlxalq Standartın ilk nəşrinin dərc olunduğu zaman dünya üzrə heç bir nömrələmə sistemi mövcud deyildi. Qiymətli kağızlar bazarı yüksək səviyyədə inkişaf etmiş ölkələrdə qiymətli kağızların buraxılışı həmin ölkədən xaricdə heç bir əhəmiyyət kəsb etməyən nömrələr vasitəsilə kodlaşdırılmaqla identifikasiya olunur. Başqa sözlə, eyni buraxılışın qiymətli kağızlarının fiziki saxlancı və/və ya uçotu aparılan ölkələrdə onları digər nömrələr vasitəsilə identifikasiya edirlər. Nəticədə milli kodlar beynəlxalq əqdlərdə istifadə oluna bilməzlər.

Yüksək səmərələşdirici təsirinə görə beynəlxalq istifadəsi mümkün olan nömrələmə sistemi qiymətli kağızların beynəlxalq bazarında fəaliyyətə əhəmiyyətli dərəcədə kömək edir və dəstəkləyir. Belə bir sistem bu Beynəlxalq Standartlar əsasında təmin edilir.

Bu Beynəlxalq Standart hazırlanarkən bu sahədə əldə olunmuş səmərəli iş qaydası və qiymətli təcrübəni nəzərə alaraq, həmçinin bu sistemin qəbul olunmasının təmin etmək məqsədilə milli sistemlərin maksimal dərəcədə saxlanılmasına xüsusi nəzər yetirilmişdir. Bundan başqa, bu Beynəlxalq Standart sadə beynəlxalq istifadəsi olan sistemin və lazımi məlumatın dünya üzrə dərhal çatdırılmasına təminat verən informasiya şəbəkəsinin yaradılması məqsədini daşıyır.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**Qiymətli kağızlar və əlaqəli maliyyə alətləri - qiymətli kağızların beynəlxalq identifikasiya kodlaşdırma sistemi (İSİN)   AZS 267-2007**

**Securities and related financial instruments – International Securities identification numbering system (İSİN)       ISO 6166:2001(E)**

Tətbiq edilmə tarixi «11» iyun 2007-ci il

## 1 Əhatə dairəsi

Bu Beynəlxalq Standart qiymətli kağızların beynəlxalq identifikasiya kodları (İSİN-lər) üçün vahid struktur müəyyən edir. Bu Standart qiymətli kağızlar və digər maliyyə alətlərinin alqı-satqısı və idarə olunması zamanı istənilən formada istifadə üçün nəzərdə tutulur.

## 2 Normativ istinadlar

Aşağıdakı normativ sənədlərin müddəaları buradakı mətndə istinad olmaqla bu Beynəlxalq Standartın müddəalarını təşkil edirlər. Standartın istənilən nəşrinə edilən sonrakı dəyişikliklər və ya düzəlişlər tarixi müəyyən edilən istinadlar üçün aid edilmir. Lakin, bu Beynəlxalq Standartla razılaşan tərəflər aşağıda göstərilən normativ sənədlərin ən son nəşrinin tətbiqinə səy göstərməlidirlər. Tarixi müəyyən edilməyən istinadlar üçün normativ sənədin ən son nəşrinə istinad olunur. İSO və İEC-in üzvləri hal-hazırda qüvvədə olan Beynəxalq Standartların reyestrini aparırlar.

İSO 3166 (bütün hissələri), *Codes for the representation of names of countries and their subdivisions..*

İSO 4217, *Codes for the representation of currencies and funds.*

## 3 Termin və anlayış

Bu Beynəlxalq Standartın məqsədləri üçün aşağıdakı termin və anlayış istifadə olunur:

**3.1**
**İSİN**
**qiymətli kağızların beynəlxalq identifikasiya nömrəsi**
müəyyən qiymətli kağızı və ya digər maliyyə alətini birmənalı identifikasiya edən koddur.

## 4 Prinsiplər

İSİN aşağıdakılardan ibarət olmalıdır:

a) İSO 3166-da müəyyən edilən alfa-2 ölkə kodu olan **prefiks**;

b) doqquz işarədən (hərf və/və ya rəqəm) ibarət olan **əsas nömrə.** Milli nömrəsi doqquz rəqəmdən ibarət olan ölkələrdə həmin nömrə istifadə oluna bilər; mövcud milli nömrə doqquz rəqəmdən az olan ölkələrdə milli nömrənin qabağına sıfırlar əlavə olunmaqla həmin nömrədən istifadə etmək olar. Yoxlayıcı rəqəm mövcud olduqda qeyd olunan rəqəm əsas doqquz rəqəmin tərkib hissəsi kimi qiymətləndirilməlidir;

c) **yoxlayıcı rəqəm,** modul 10 "ikiqat artır - topla - ikiqat artır" formulasını əlavə A-da göstərildiyi kimi istifadə etməklə hesablanır.

## 5 İSİN-in verilməsi

### 5.1 Nömrələyici agentliyi mövcud olan ölkələr

Milli nömrələyici agentliyi mövcud olan ölkələrdə, müvafiq agentlik 4-cü maddənin prinsiplərinə əsasən və əlavə B-də açıqlanan səlahiyyətlərə uyğun olaraq İSİN kodlarını verir.

### 5.2 Nömrələyici agentliyi mövcud olmayan ölkələr

Milli nömrələyici agentliyi mövcud olmayan ölkələr üçün, təyin edilmiş əvəzedici agentlik İSİN kodlarını verir. Əvəzedici agentlik tərəfindən İSİN-in prefiksi 4-cü maddəyə uyğun olaraq verilməlidir.

### 5.3 Mövcud İSİN-lər və İSİN-ləri olmayan mövcud qiymətli kağızlar

Bu Beynəlxalq Standartların əvvəlki nəşrlərin əsasında verilmiş bütün mövcud İSİN

kodları dəyişilməmiş saxlanılır. Lakin, İSİN kodu mövcud olmayan qiymətli kağızlara və maliyyə alətlərinə İSİN kodlarının verilməsi ən son nəşrlərə əsaslanmalıdır.

## 5.4 İSİN üçün ərizə

İSİN-in verilməsi üçün ərizə (bax əlavə C-yə) aidiyyatı olan nömrələyici agentliyə və ya

müvafiq əvəzedici agentliyə təqdim oluna bilər. Mövcud buraxılışlar üçün, qiymətli kağız bazarının istənilən peşəkar iştirakçısı müraciət edə bilər.

Məsləhət olunur ki, aparıcı menecer/emitent yeni buraxılışın yerləşdirilməsindən əvvəl İSİN-in verilməsi üçün müraciət etsin.

Bazarın tələblərinə cavab vermək məqsədilə nömrələyici agentliklər İSİN-ləri müntəzəm surətdə verəcəklər.

İSİN 5.1 və ya 5.2-ci bəndlərə əsasən alına bilmədiyi halda, məsələ qeydiyyat orqanı tərəfindən müəyyən edilən qaydalara əsasən həll olunmalıdır.

## 5.5 İnformasiya mübadiləsi

İnormasiyanın dünya üzrə əldə edilməsini təmin etmək məqsədilə qeyd olunan agentliklər İSİN kodlarına dair məlumatları öz aralarında mübadilə etməlidirlər.

# 6 Qeydiyyat orqanı

ISO/IEC Direktivlərinin 1-ci Bölməsinə qoşulan N əlavəsinin müddəalarına uyğun olaraq, ISO Şurası bu Beynəlxalq Standart üçün qeydiyyat orqanı kimi Milli Nömrələyici Agentliklər Assosiyasiyasını (ANNA scrl) təyin etmişdir.

# 7 Məlumatlar və sorğular

Bu Beynəlxalq Standartın tətbiq olunması və İSİN-lərin verilməsinə dair məlumatlar və sorğular milli nömrələyici agentliklərin və əvəzedici nömrələyici agentliklərin siyahısının surətləri ilə birgə qeydiyyat orqanının katibliyinə ünvanlana bilər.

ISO 6166 qeydiyyat orqanının mövcud ünvanı aşağıdakı kimidir:

Association of National Numbering Agencies scrl
Mr. Alain Duhamel, Executive Secretary
c/o Euroclear France
115, rue Reaumur
FR-75081 Paris Cedex 02
France

## Əlavə A
(normativ)

## Modul 10 "Ikiqat Artır -Topla-Ikiqat Artır" yoxlayıcı rəqəminin hesablanması üçün formula

Bu hesablanma aşağıdakı addımlardan ibarətdir:

a) Addım 1

Əlifba hərfləri A.1cədvəlində göstərilən rəqəmlərlə müəyyən edilir.

**Cədvəl A.1**

| Hərf | Rəqəm | Hərf | Rəqəm | Hərf | Rəqəm | Hərf | Rəqəm | Hərf | Rəqəm |
|---|---|---|---|---|---|---|---|---|---|
| A | 10 | F | 15 | K | 20 | P | 25 | U | 30 |
| B | 11 | G | 16 | L | 21 | Q | 26 | V | 31 |
| C | 12 | H | 17 | M | 22 | R | 27 | W | 32 |
| D | 13 | İ | 18 | N | 23 | S | 28 | X | 33 |
| E | 14 | J | 19 | O | 24 | T | 29 | Y | 34 |
| | | | | | | | | Z | 35 |

b) Addım 2

Sağdan birinci rəqəmdən (aşağı dərəcə) başlamaq şərtilə, sıfırlar daxil olmaqla hər ikinci gələn rəqəmin göstəricisi ikiqat artırılır.

c) Addım 3

2-ci addımda alınan hər bir nəticə riyazi əməliyyat aparılmamış hər bir ilkin rəqəmlərlə toplanır.

d) Addım 4

Addım 3-də alınan cəm növbəti 0-la bitən yuxarı rəqəmdən çıxılır [bu cəmin aşağı dərəcəli rəqəminin (birrəqəmli vahid) "onluğa tamamlamaq" üçün hesablanmasına bərabərdir]. Əgər 3-cü addımda alınan rəqəm sıfrla bitirsə (30,40 və s.), yoxlayıcı rəqəm 0-ra bərabərdir.

MİSALLAR

W.R. Grace and Co. səhmləri

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | US | 3 | 8 | 3 | 8 | 8 | 3 | 10 | 5 |
| 30 | 28 | 3 | 8 | 3 | 8 | 8 | 3 | 10 | 5 |
| 21 | 21 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 21 | 2 |
| 60 | 48 | 6 | 8 | 6 | 8 | 16 | 3 | 20 | 10 |

6 + 0 + 4 + 8 + 6 + 8 + 6 + 8 + 1 + 6 + 3 + 2 + 0 + 1 + 0 = 59

Yoxlayıcı rəqəm 1

60

Hitachi Ltd. səhmləri

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | JP | 3 | 7 | 8 | 8 | 6 | 0 | 000 |
| 19 | 25 | 3 | 7 | 8 | 8 | 6 | 0 | 000 |
| 21 | 21 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 212 |
| 29 | 45 | 67 | 1 | 6 | 81 | 2 | 0 | 000 |

2 + 9 + 4 + 5 + 6 + 7 + 1 + 6 + 8 + 1 + 2 + 0 + 0 + 0 = 59

Yoxlayıcı rəqəm 9

60

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı

(Dünya Bankı) 15 1/8 % 15 Dekabr 1991-ci il tarixinə ödənilməli

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | US | 4 5 | 9 0 | 5 | 6 | D | G | 9 |
| 30 | 28 | 4 5 | 9 0 | 5 | 6 | 13 | 16 | 9 |
| 21 | 21 | 2 1 | 2 1 | 2 | 1 | 21 | 21 | 2 |
| 60 | 48 | 8 5 | 18 0 | 10 | 6 | 23 | 26 | 18 |

6 + 0 + 4 + 8 + 8 + 5 + 1 + 8 + 0 + 1 + 0 + 6 + 2 + 3 + 2 + 6 + 1 + 8 = 69

Yoxlayıcı rəqəm 1

70

# Əlavə B
(normativ)

## Nömrələyici agentliklərin səlahiyyətləri

| Kateqoriya | Buraxılışın növü | Prefiks/MNA |
|---|---|---|
| **PAYLI QİYMƏTLİ KAĞIZLAR** | **Səhmlər**<br>- adi, konvertasiya oluna bilən, imtiyazlı səhmlər | Emitentin qanuni qeydiyyatdan keçdiyi və ya qeydiyyat mövcud olmadıqda onun yerləşdiyi ölkənin MNA və ya əvəzedici agentlik tərəfindən verilən Alfa-2 ölkə kodu |
| | **Paylar**<br>- investisiya trastları, investisiya fondları | MNA və ya əvəzedici agentlik tərəfindən verilən emitentin ölkəsinin Alfa-2 ölkə kodu. |
| | **Depozitar qəbzləri**<br>- təqdim edilən səhmlər | Paylı qiymətli kağızlar üçün müəyyən edilmiş qaydalar bu növə də aid edilir.<br><br>İstiqrazlar üçün müəyyən edilmiş qaydalar bu növə aid edilir. |
| **BORC ALƏTLƏRİ** | **Beynəlxalq olmayan istiqrazlar və borc alətləri**<br>- daxili və ya xarici emitent<br>- daxili və ya xarici valyuta<br>- daxili yerləşdirmə | Səlahiyyətli MNA və ya əvəzedici agentlik tərəfindən verilən aparıcı menegerin İSO 3166 Alfa-2 ölkə kodu |
| | **Beynəlxalq istiqrazlar və borc alətləri**<br>- daxili və ya xarici emitent<br>- daxili və ya xarici valyuta<br>- beynəlxalq yerləşdirmə (beynəlxalq menecment qrupu, yəni bir neçə ölkənin menecerləri tərəfindən eyni zamanda bir neçə ölkədə satış üçün nəzərdə tutulan borc qiymətli kağızları) hansı ki: | |

| Kateqoriya | Buraxılışın növü | Prefiks/MNA |
|---|---|---|
| | - bütün qeyd olunan qiymətli kağızlarının buraxılışından sonra onlar bir ölkənin Mərkəzi Qiymətli Kağızlar Depozitarında (CSD) saxlanılır | Səlahiyyətli MNA və ya əvəzedici agentlik tərəfindən verilən CSD yerləşdiyi ölkənin Alfa-2 ölkə kodu |
| | - bütün qeyd olunan qiymətli kağızlarının buraxılışından sonra onlar bir neçə ölkənin Mərkəzi Qiymətli Kağızlar Depozitarında (CSD) və ya Beynəlxaq Mərkəzi Qiymətli Kağızlar Depozitarında (İCSD) saxlanılır | XS (Beynəlxalq Klirig Sistemi üçün nəzərdə tutulan prefiks) |
| | **Xırdalanmış faiz və nominal dəyər** | |
| | - rəsmi xırdalanma (xırdalanma emitentin məsuliyyəti altında aparılır); | İstiqrazlar üçün müəyyən edilən qaydalar həmçinin rəsmi xırdalanmaya aiddirlər. |
| | - qeyri-rəsmi xırdalanma (xırdalanma emitent olmayan üçüncü şəxsin təşəbbüsü ilə aparılır) | Xırdalanmanı aparan şəxsin ölkəsinin Alfa-2 ölkə kodu |
| | **Dövlət Qısamüddətli İstiqrazları**<br>**Digər** | İstiqrazlar üçün müəyyən edilən qaydalar həmçinin Dövlət Qısamüddətli İstiqrazları və digər borc alətlərinə aiddirlər |
| **SƏLAHİYYƏTLƏR** | **Hüquqlar** | Səlahiyyətli MNA və ya əvəzedici agentlik tərəfindən verilən emitentin ölkəsinin Alfa-2 ölkə kodu |
| | **Varantlar** | |
| | - borc alətinə əlavə olunmayan | Səlahiyyətli MNA və ya əvəzedici agentlik tərəfindən verilən emitentin ölkəsinin Alfa-2 ölkə kodu |
| | - borc aləti ilə birgə buraxılan | İstiqrazlar üçün müəyyən edilən qaydalar həmçinin bu növə aiddirlər. |

| Kateqoriya | Buraxılışın növü | Prefiks/MNA |
|---|---|---|
| **TÖRƏMƏ QİYMƏTLİ KAĞIZLAR** | **Opsionlar** | Müddəti bitdiyi ay və strayk qiyməti ilə müəyyən edilmiş bütün kontraktlar xüsusi derivativ alətlərini buraxan birjanın yerləşdiyi ölkənin prefiksi göstərilməklə İSİN kodunu alırlar. |
| | **Fyuçerslər** | Müddəti bitdiyi ay və strayk qiymət ilə müəyyən edilmiş bütün kontraktlar xüsusi derivativ alətlərini buraxan birjanın yerləşdiyi ölkənin prefiksi göstərməklə İSİN kodunu alırlar. |
| **DİGƏR** | **Əmtəələr** | Hər məhsula və birjaya bir İSİN, hətta ölkədə bir neçə birja mövcud olsa belə. Eyni məhsulun keyfiyyət müxtəlifliyi nəzərə alınmamalıdır. |
| | **Valyutalar** | |
| | - İSO 4217-də müəyyən olunduğu kimi | İSİN emitent ölkənin prefiksini daşımalıdır. Çarpaz kurs halında, prefiks nisbəti müəyyən edən emitent ölkəsinin prefiksinə uyğun olmalıdır. |
| | **İndekslər** | |
| | - Maliyyə sektorunda istifadə olunan və maliyyə institutları tərəfindən (Birja və s.) hesablanan referensial indekslər | İSİN kodlarının yerləşdirilməsi indeksi icad edən ölkənin prefiksi ilə aparılır. |
| | **Faiz dərəcələri** | |
| | - Maliyyə sektorunda istifadə olunan və maliyyə institutları tərəfindən hesablanan, müddət və valyuta ilə müəyyən olunduğu kimi, referensial faiz dərəcələri. | İSİN kodu icad edən ölkənin prefiksini daşımalıdır. |

## Əlavə C
(normativ)

## Minimum Məlumat

Ümumilikdə, aşağıdakı məlumatlar agentlik tərəfindən İSİN-nin verilməsi üçün təqdim olunan ərizədə öz əksini tapmalıdır:

- buraxılışın adı və təsviri (kateqoriya və ya növ daxil olmaqla);
- emitentin adı və yerləşdiyi ünvan;
- aparıcı menecerin və ya idarəedici qrupun (borc qiymətli kağızları üçün) adı və yerləşdiyi ünvan;
- Beynəlxalq borc qiymətli kağızları üçün olan CSD/İCSD-nin adı və ölkəsi;
- törəmə qiymətli kağızlar və əmtəələr üçün Birjanın adı və ölkəsi;
- dərəcə, ödəmə qaydası, faiz ödəmə tarixi;
- valyuta.

Milli agentliklərə müraciətlər hər nömrələyici agentliyin öz qaydalarına müvafiq olmalıdır, yəni nömrələyici agentliklər tərəfindən əlavə məlumatlar tələb oluna bilər.

# Əlavə D
(məlumüt üçün)

## Misallar

| Növ | Buraxılışın təsviri | Emitent və ya mənbə | Emitentin ölkəsi | Aparıcı Menecerin ölkəsi | Prefiks | İSİN |
|---|---|---|---|---|---|---|
| Səhm sertifikatları | - | W.R. Grace and Co., New York N.Y. | US | - | US | US3838831051 |
| Səhm sertifikatları | - | Hitachi Ltd., Tokyo | JP | - | JP | JP3788600009 |
| Səhmlər üçün depozitar qəbzi | Hitachi Ltd.Deutsche Zertifikate | Deutscher Ausiandskassen-verein AG, Frankfurt a.M. | DE | - | DE | DE0008570441 |
| İnvestisiya Fondunun payının sertifikatı | Unifonds | Union-İnvestmentgesellschaft GmbH, Frankfurt a.M. | DE | - | DE | DE0008491002 |
| Xarici İstqrazlar | 14 % S-Borc kağızları 85.5.26 | Mobil Exploration and Producing Finance Netherlands B.V. | AN | US | US | US606904AB65 |
| Xarici İstqrazlar | 8% Zəmanətli S-İstiqrazlar 1975-1983/1988 | Nationale Nederlanden Finance Corp.(Curaçao) N.V. Willemstad/Curaçao | AN | NL | NL | NL0000087716 |
| Beynəlxalq İstiqrazlar | 2028/09/15 ödənilməli olan dəyişən dərəcəli İstiqrazlar | Mortgage Securities Plc | GB | GB | XS | XS0015008302 |
| Beynəlxalq İstiqrazlar | 4 ¼ % DM Istiqrazlar 1991/95 varantlarla | Mitsubishi Oil Company, Limited | JP | DE | DE | DE0004040753 |

| Növ | Buraxılışın təsviri | Emitent və ya mənbə | Emitentin ölkəsi | Aparıcı Menecerin ölkəsi | Prefiks | İSİN |
|---|---|---|---|---|---|---|
| Beynəlxalq İstiqrazlar | 4% Zəmanətli S-İstiqrazlar 1995 varrantlarla | Naigai Co.,Ltd. | JP | GB | XS | XS0032811084 |
| Opsionlar | IBEX35 üzrə Opsionlar, Kol, 16/06/2000 Strayk: 12000 | MEFF Renta Variable | ES | - | ES | ES0A00071720 |
| Fyuçerslər | 16/06/1999 10 illik Dövlət İstiqrazları üzrə Fyuçers | MEFF Renta Fija | ES | - | ES | ES0B00001056 |
| İndekslər | İBEX 35 | Spanish Continuous Market for Shares Index | ES | - | ES | ES0Sİ0000005 |
| Faiz dərəcələri | Üç aylıq LİBOR | London Interbank Offered Rate | GB | - | GB | GB0009950436 |
| Əmtəələr | Aluminium Ərintisi | London Metal Exchange | GB | - | GB | GB0009950659 |
| Valyutalar | Alman Markası | Wertpapier-Mitteilungen | DE | - | DE | DE0009695817 |

Bu standart İSO 6166:2001(E) beynəlxalq standartın Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan dilinə tərcümə edilərək hazırlanmışdır.

Sədr

Məsul İcraçılar:

1. Sədrin köməkçisi

   __________________ A.Əlizadə

   «____» __________ 2007-ci il

2. Milli Depozit Mərkəzinin hüquqşünası

   __________________ N.Məmmədova

   «____» __________ 2007-ci il